**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIII buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIII выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Arts, XXXXIII edition, Baku, 2023*

**UOT 792.**
**DOI: 10.52094/152412.43.2023.15**

**Fikrət Əbdülhəmid oğlu Sultanov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Məsləhətçi-professor**

# DRAMATURQ NƏCƏFBƏY VƏZİROVUN GÖZLƏRİLƏ QADINLAR VƏ KİŞİLƏR DÜNYASI…

**Xülasə:** Məqalə müəllifi Nəcəfbəy Vəzirovun qadın və kişi haqqında fikirlərini təhlil edərək dahi dramaturqun əsərlərindən sitatlar gətirir.

**Açar sözlər:** dramaturq, Nəcəfbəy Vəzirov, qadın, kişi

**Dramaturq Nəcəfbəy Vəzirovun gözlərilə KİŞİLƏR DÜNYASI...**

İRDA XANIM /Əbdürrəhman bəyin övrəti/ – Xudavənda, görəsən, mənim kimi də dünyada bir bədbaxt varmı? Az qalıb ciyərim od tutub yana... İçərim özümü yandırır, çölüm özgəni... Xırda xanım Əbdürrəhman bəy arvadı... Səbəbin allah evin yıxsın... Bizim bir yetişmiş qızımız var, onu gərək bir təhər eləyək... Onun tayları hamısı gediblər... Püstə xanımın qızı getdi. Nurcahan xanımın qızı getdi. Səfdərqulu bəyin qızı getdi... Bircə mənə de görüm, getmisənmi İskəndər bəyin yanına? O ki invərsət deyirsiz, nə deyirsiz qurtarıb, həkim gəlib, deyirlər ki, bir yaxşı kamallı, göyçək oğlandı... Nə tövr olsa gərək varımdan, yoxumdan keçib bu işi düzəldim, yoxsa o qızlarını oxutmuş ləçərlər əgər bilsə, oğlanı çəkəcəklər bəndlərinə... Belə ittifaqı əldən buraxmaqlıq bişüurluqdur... Çünki oldun dəyirmançı çağır gəlsin dən Koroğlu... Ya göy çadırın sahibi! Ya mıxı mismara döndərən tanrı! Ya yoxdan bizi xəlq eləyən tanrı. İmdad günüdür, yet dada!..

PƏRİ /qarabaş/ – A başınıza dönüm, bu arvad lap ağlın itiribdir axı. Bir deyən gərək, ay xanım, sən Nurcahanı tanımırsan, bilmirsən ki, o gündə min xan qapısında, bəy qapısında duz dadır? Ona sirr vermək olar? İşdi yağmadı, bitmədi. Ondan sonra zurnaya qulaq as. Gələcəkdi Püstə xanım, – «a qız Xırda, bacın ölsün, bu nə sözdü şəhərdə danışırlar?» ... Gələcəkdi Bədircahan xanım, - «a qız Xırda, mən elə sevinirdim, and olsun allaha, elə sevinirdim. Doğrusu deyirdim yoğurmadın, yapmadın, hazırca kökə tapdın, a xalan ölsün bu nə işdi?» ... Gələcəkdi Məşədi Cahan, – «Xanımın canı sağ olsun, İskəndər olmaz, Kərim olu, Kərim olmaz, Səlim olu» ... Beş-beş gələcəklər, yeyib-içib, şad-xürrəm geri gedəcəklər. Xanımlar elə belə mahna axtarırlar. İndi, Pəri, gəl evi süpür. Pəri, su

gətir. Pəri, başmaq qoy. Bəxtəvər başımıza, pişiyimiz oğlan doğub ... Aley, daş başına, ağılsız başına...

FATMA XANIM – Keçən zamana necə gözəl zamana idi... Biz dörd gəlindik bir evdə... Hamımız qayınanamızın qabağında əli bağlı, satın alma qul kimi... Əlimiz-əlimizin üstə, üzüörtülü buracan /döşünü göstərir/. Kimsənin cürəti nəydi bir kəlmədən artıq danışsın! O zamanda xeyir var idi, bərəkət var idi. Bir kəlmədən artıq danışanda deyirdi – Ay hey, yolunu itirmə, düz tərpən! Gəlinlər də dinməz-söyləməz /əlini vurur ağzina/, guya ki, laldılar... İndi gəl tamaşa elə. Bu zamananın gəlinləri belə otur kaftar, elə dur biiman, axıratsız! Tumanlarını elə fırıldadırlar, az qalır ki, göz tökələr... Odu ki, bərəkət qalmayıb da... Bəs bu çiçək, qızılçıq, boğazağrısı nədəndi? Hamısı tamam ondandı ki, böyüyün üzünə ağ olurlar. Bu zamanın gəlinlərinin üzdərinə daş yamansın, üzdərini qara yer örtsün...

NURCAHAN /qoca arvad/ – Qoyunuz bir qəribə əhval mən sizə nağıl edim. Neçə gün bundan əqdəm getmişdim Ağa Cəfərgilə, girdim otağa, gördüm onun arvadı Gülbacı Rusiyət libasında öz-özünə danışır... – «Razdivay pajalskə» ... Soruşdum, a qız, dəli olubsan nədir? Nə danışırsan? Dedi neyləyim, başına dönüm, Nurcahan xala? Əmi oğlu evə gələndə deyir ki, türk arvadları bircə qara quruşa dəyməzlər, özləri pinti, libasları yaraşıqsız, üstlərindən pis iy gəlir... Gedirsən xarici qızlarının yanına, adama elə naz-qəmzə edirlər ki, adamın ağlı başından çıxır... Elə danışırlar ki, adam valeh olur, bir portaqal təklif edəndə deyirlər – Jiri pajalskə... Paltarlarını soyunmaq istəyəndə deyirlər – «Razdivay pajalskə», yəni paltarımı soyundur, çəkmələrimi çıxart... İndi mən də öyrənirəm, əmi oğlum gələndə deyəcəyəm – «Razdivay pajalskə», «isnimi pajalskə». Bir alma da saxlayacağam, verib deyəcəyəm – «Jiri pajalskə»... Onda deyirəm bəlkə o mürtəd balalarından əl çəkib, evdən qaçmasın...

**Dramaturq Nəcəfbəy Vəzirovun gözlərilə KİŞİLƏR DÜNYASI..**

AŞIQ VƏLİ – ...Kişilərin hansından həzər etmək gərək?.. Bir-bir ərz eləyim... Əvvəla kişilərin şərir, biirzinə lənət!... Üzdə bir, batində qeyriyə lənət!... Adama ümid verib, yerindən eləyib, zərərə salıb, axırda sözünə əməl eləməyənə lənət!... Məqami-ehtiyacda dost olub, sonra dostluğu, aşnalığı kəsənə lənət!... Qohum-əqrabasına, yalı artanda, təşəxxüs edənə lənət!... Ay Cəbi, sənin özünə də lənət ki, Zeynəb arvadın oğlunu, divanda yalandan and içib şəhadətlik edib, vilayətdən yox elədin!.. Biçarə arvad əli qoynunda, nalə edə-edə qalıbdır...

AĞSAQQAL NƏSİHƏTİ – Dövlət duması buraxıldı. Gözləriniz aydın olsun, bayramınız mübarək!.. Həmin su, həmin dibcək – çevir tatı, vur tatı. Atam oğlu, qardaşım!.. Vay halına, hər yetən təzədən oldu ağan. Yaxın gəldi, sal başını aşağa,

qoy vursun qapazı. Olmaya-olmaya cavab qaytarasan. Divanbəyi gəldi, başla titrəməyə. Belədir, ağa, sən buyurandı. Mən nəkarəyəm. Sənin ayağın biləni mənim başım da bilməz, doğru deyirsən, ağa. Belə gərək olsun cavabın. «Gətir» desə, bilatəxir gəlsin meydana. Onsuz yaramaz, qardaşım!.. Nə etməli, fələyin üzü qara olsun. Naçalniyə rast gəldin, düş torpağa bir dilimə söylə – «Atam, anam, bacım, qardaşım, çolpa balalarım sənə qurban, a naçalnik. Ayaqlarının torpağına fəda olum, a naçalnik. Evim-eşiyim, mal-dövlətim sənə qurban, a naçalnik». Gətir desə, o saat gətir. Gecə gətirəsən ki, görən olmasın, dəxi məsləhətdir...

ASLAN BƏY – ...Dünya malından ötrü oğul durub ata-ananın üzünə, bacı qardaşın üzünə, məhəbbət əldən gedibdir, mehribanlıq qalmayıb, it sümük üstə boğuşan kimi gündüz axşamadək boğuşurlar...

...Bizim zəmanədə kim oğurluq etmir? Bircə səfehlər...

AĞA DƏRVİŞ – ...Kərbəlayı, bizim çox adətlərimiz var ki, bizi çanaq altından çıxmaqa qoymurlar. Məsələn, bizim oğul evləndirib, qız verməyimizə bir bax. Qız evindən hökm gəlir – səkkiz dəst libas, biri zərzərdən, biri zərzibadan, biri xəzriyıxmazdan, biri gəndədurdan, biri şəmsülqəmərdən, biri qayçıkəsməzdən, nə isə... Əlavə bir altı pud şirni, qırx kəllə qənd, iki pud nabat və iyirmi beş xələt. Allah göstərməsin, filan qədər qızıl şeylər. Gəl bunların indi cavabın ver görüm necə boğazın qurumayacaq! Necə vay, dədə vay ın asimana bülənd olmayacaq! Bununla belə o tərəf buyurur – «Mən qızımı əskik tuta bilmərəm». Bu tərəfin boğazı quruya-quruya deyir ki, – «Filankəs oğluna nə tövr toy edib. Mən ondan əskik deyiləm ki. Mən də gərək onun kimi rəftar edəm, hətta bir azca da ondan artıq»... Belədir, kərbəlayı, yoxsa belə deyil?

– Bəli, ağa Dərviş, belədir. Mən oğlumu beş il bundan irəli evləndirmişəm, hələ indiyə kimi onun borcunu verib qurtarmamışam...

ƏŞRƏF BƏY – Adın müsəlman qoyan üçün dünyada hər bir dərdlərdən acı odur ki, hansı din qardaşımıza rast gəlirsən, onda mürüvvət, rəhm, məhəbbət nişanələri bilmərrə görünmür və halonki Həzrət Rəsul əleyhüssəlam buyurubdur ki, Məqribdəki müsəlmana iynə batsa, Məşriqdəki gərək onun ağrısın bilsin... Bu saat yer üzündə nə qədər müsəlman var, cəmən zəlalətdədirlər... Səbəb? Ehkami-şəriət bilmərrə yaddan çıxıb... Elm yox, tərbiyə yox, ədəb yox... Hər bir qədəmdə vəhşi nadanlıq, adam öldürmək, qan tökmək, yalan demək... Sübut? Tamaşa edin, divanxanalar qapısında qoyun sürüsü kimi boyun-boyuna büzülüb yığılan kimdir? Müsəlman! Bir-birinin canına-malına düşmən kimdir? Müsəlman! Bu çolaq, çiyni düşük, dilənçi kimdir? Sərkərdan, əli qoynunda neyləyim deyən kimdir? Ah! Yazıq, bədbəxt, biçarə müsəlman!..

**Фикрет Султанов**

**Мир женщин и мужчин глазами драматурга Наджафбека Везирова**

**Резюме:** Анализируя мысли Наджафбека Везирова о женщинах и мужчинах, автор статьи приводит цитаты из произведений великого драматурга.

**Ключевые слова:** совет, драматург, Наджафбек Везиров, женщина. мужчина

**Fikrat Sultanov**

**The world of women and men through the eyes of Nadjafbek Vezirov**

**Summary:** The author quotes works of Nadjafbek Vezirov and analyzes thoughts of the great playwright about women and men.

**Key words:** совет, драматург, Наджафбек Везиров, женщина. мужчина

**Məqalənin redaksiyaya daxil olma tarixi: 03. 09. 2023**